# Yurdum, yuvam, məskənìm

**Göy üzündə qartallar qanad saxladı, Həkəri, Bərgüşad çaylarının suyu coşub çağladı, əzəmətli dağların zirvəsinə qardaşlıq günəşinin şəfəqləri yayıldı, yamaclardan boylanan çiçəklərin ətrinə bürünmüş yurd yerində əsl təntənə yaşandı. Dörd il yarım bundan əvvəl diplomatiya və informasiya cəbhəsində döyüşən, dəmir iradəsi, qətiyyəti, Vətən və xalq məhəbbəti, liderlik xarakteri ilə 30 illik işğala son qoyan, haqqı, ədaləti bərpa edən, milli qürurumuzu, şərəfimizi ucaldan Qalib Ali Baş Komandan İlham Əliyev maraqlı qüvvələrin qarşısına sipər çəkdi, iddiaların nəbzini, status-kvonu, tərəfkeşliyi, cəsarətlə dəyişməyə nail oldu. Tarix sübut etdi ki, İlham Əliyev sözünün sahibidir, həqiqət carçısıdır. Qətiyyətli sözü, siyasi iradəsi, xalqımızın birliyindən aldığı gücü, liderlik qüdrəti, şəxsi fədakarlığı sayəsində dörd bir tərəfdən Azərbaycana diş qıcayan, onu təxribata çəkmək istəyən, öz vətəndaşlarını küçələrdə sürükləyən, əzən, tapdalayan, həbs edən, ermənipərəst Fransanın və digər beynəlxalq təşkilatların bizə qarşı təkəbbürlü, ikiüzlü davranış və təhdidlərini ustalıqla dəf edir, eyni zamanda dünyada görkəmli dövlət xadimi kimi tanınır. Cəsarətlə demək olar ki, öz tarixində ilk dəfə olaraq Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın sarsılmaz birliyini, polad kimi əyilməz iradəsini nümayiş etdirdi. Azərbaycan otuz ilə yaxın erməni işğalından əziyyət çəkməsinə baxmayaraq, bütün haqsızlıqlara, ikili standartlara, təxribatlara mərdliklə sinə gərdi, qələbəyə və şərəfə qadir olduğunu sübut etdi.**









2023-cü il mayın 28-də dövlətimizin başçısı İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edərək bildirib ki, biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun. Artıq Laçın bərpa edilən, dirçələn sadəcə coğrafi ərazi deyil, yeni geosiyasi məkan, qardaşın qardaşa sarıldığı, siyasi subyektliyin, milli ləyaqətin, suveren söz demək haqqının səsləndiyi yurd yeridir. Dağların əzəmətini xatırladan Zirvə görüşünün burada, həm də azərbaycanlılar üçün ən müqəddəs gündə - mayın 28-də təsadüf keçirilməsi böyük məna daşıyır, azad edilmiş torpaqlarda duyğular yenidən baş qaldırır, cəbhə xətləri və magistrallar, yaddaş və gələcək, tarix və strategiya, sanki bir bədəndə üç ruh Laçında kəsişir. Ermənistanın hərbi təcavüzü nəticəsində uzun illər məcburi köçkün taleyi yaşamış insanların doğma torpaqlarda sabaha dərin inamı və gələcək arzuları baş qaldırır.

Dəniz səviyyəsindən 1 700 metr yüksəklikdə, mürəkkəb dağ relyefində inşa edilmiş Laçın Beynəlxalq Hava Limanı həm mühəndislik baxımından böyük nailiyyət, həm də çətin şəraitdə belə irimiqyaslı layihələr reallaşdırmaq bacarığıdır. Türkiyə və Pakistan kimi qardaş və strateji müttəfiqlərin Laçında beynəlxalq sammitdə iştirakı əslində münaqişədən sonrakı reallıqları görməyən Avropa İttifaqına, separatizmi dəstəkləyən, Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxan Fransaya və hələ də sülh sazişini imzalamaqdan yayınan və sülh prosesinə əngəl törədən Ermənistana diplomatik dillə yazılmış siyasi mesaj idi. Avrasiyanın qovşağında üç qardaş dövlət - Azərbaycan, Türkiyə və Pakistan tandemi həm də qardaşlığın bütün meyarlarına cavab verir.

Azərbaycan öz hərbi qüdrətini artırır, ordunu modernləşdirir, son model hərbi texnikalarla təchiz edir, hərbi təlimlərlə silahlı qüvvələrin döyüş hazırlığını yüksəldir, strateji tərəfdaşları ilə təcrübə və biliyi bölüşür. Hərbi-siyasi baxımdan Bakı son dörd il ərzində Türkiyə və Pakistanla 11-dən çox birgə hərbi təlim keçirib. Onların arasında "Üç qardaş-2021" və "Heydər Əliyev-2023" kimi önəmli təlim yer alır. Bu təlimlər təkcə ordu birliyini yox, siyasi həmrəyliyi ifadə edir.

2024-cü ildə Türkiyənin müdafiə sənayesi ixracatı 5,5 milyard dolları ötüb, bunun da təxminən 20 faizi türk dünyası ölkələrinin - o cümlədən, Azərbaycan və Pakistanın payına düşüb. Bundan başqa, Türk Dövlətləri Təşkilatı yalnız mədəni birlik deyil, eyni zamanda, geosiyasi platforma kimi inkişaf etdirilir. Bu təşəbbüs nə NATO-ya, nə də Aİ-yə alternativ deyil, qardaşlıq bağlarıdır. Hərbi sahədə Türkiyə Azərbaycanın Silahlı Qüvvələrinin modernləşməsində əsas rol oynayıb. Bayraktar "TB2", "Akıncı" və yaxın gələcəkdə təhvil veriləcək "Kızılelma" kimi yüksək texnologiyalı pilotsuz uçuş aparatlarının tədarükü, azərbaycanlı zabitlərin Türkiyədə təhsili, birgə hərbi təlimlər, zabit kadrların hazırlanması ordu sistemlərinin uyğunlaşdırılması deməkdir. Eyni zamanda, 2023-cü ildə Türkiyə ilə Pakistan arasında "T129 ATAK" hücum helikopterlərinin birgə istehsalına dair memorandum imzalanıb, üçtərəfli müdafiə konsorsiumunun yaradılması istiqamətində işlər aparılır.

Pakistan İslam dünyasında əhalisinə görə ikinci, nüvə gücünə görə isə birincidir. 2021-ci ildə Pakistan Qarabağ üzərində Azərbaycanın suverenliyini tanıyan ilk ölkələrdən biri olub, 2022-ci ildə iki ölkə arasında hərbi sahədə strateji tərəfdaşlığa dair memorandum imzalanıb və sənəddə təlimçilərin, mütəxəssislərin və elmi-texniki işçilərin mübadiləsi, birgə hərbi tədqiqatlar nəzərdə tutulur. Bir vaxtlar münaqişənin ən mübahisəli ərazisi, hayların Laçın koridoru kimi iddia etdikləri bu coğrafiyada indi Avrasiyanın yeni təhlükəsizlik, iqtisadi və mədəni konfiqurasiyası formalaşır. Laçın bütün türk dünyasının,islam aləminin siyasi, hərbi, iqtisadi qalasına çevrilir. Üç qardaş ölkə rəhbəri Zirvə görüşündə 1 milyard dollarlıq nizamnamə kapitalı olan Birgə İnvestisiya Fondunun yaradılmasına dair razılığa gəldilər. Fondun prioritet sahələri Qarabağın bərpası, kənd təsərrüfatı və su ehtiyatlarının inkişafı, yüksək texnologiyalar üzrə layihələrin icrasıdır. Bundan başqa, üç qardaş ölkənin rəhbərləri hərbi-texniki əməkdaşlığın genişləndirilməsi istiqamətində konkret planları, yeni pilotsuz uçuş aparatları üzrə birgə müəssisələrin yaradılmasını, ortaq hərbi təlim və tədris mərkəzlərinin layihələndirilməsini və həmçinin, hibrid hücumlara qarşı regional "kiberqalxan" platformasının formalaşdırılması təşəbbüsünü müzakirə etdilər.

Hazırda Laçın Aqro-Sənaye Parkında 12 müəssisə fəaliyyət göstərir və yaxın dövrdə bu rəqəm 46-ya çatacaq, deməli gözləntilər və hədəflər kifayət qədər ciddidir. Burada mebel istehsalı, balıqçılıq, yüngül və yeyinti sənayesi, elmi-təcrübə mərkəzləri və ekoloji təmiz emal müəssisələri yaradılacaq. Bu təşəbbüslər nəticəsində bölgədə yeni iqtisadi ekosistem formalaşır. İş yerlərinin açılması, texnoloji avadanlıqlarla təchiz olunmuş istehsal sahələrinin qurulması, ixrac imkanlarının genişləndirilməsi Qarabağ və Şərqi Zəngəzurun dayanıqlı inkişafına real zəmin yaradır. "Zerti" Aqrosənaye parkında yüksək keyfiyyətli dam örtükləri istehsal edilir. Müasir texnologiyalar əsasında fəaliyyət göstərən müəssisədə hazırlanan dam örtükləri ağırlığa davamlılığı, uzunömürlüyü, istənilən iqlim şəraitinə uyğun olması ilə fərqlənir. Yüz ildən çox davamlılığa malik olan dam örtüklərinin istehsalı zamanı həm yerli, həm də xarici xammaldan istifadə edilir. Bu dam örtükləri Laçın rayonunda inşa edilən bir çox evdə uğurla tətbiq olunub və artıq özünü doğruldub.

***Laçında Zirvə görüşü təşkil etməklə rəsmi Bakı bu torpaqlar artıq Azərbaycanın siyasi ürəyidir bəyanatını ifadə etdi***

Müəssisənin gündəlik istehsal gücü 190 kvadratmetrə bərabərdir. Sifariş və satışdan asılı olaraq, burada orta hesabla illik 50 min kvadratmetrdən çox dam örtüyü istehsal edilə bilər. Bir ildən artıqdır fəaliyyət göstərən müəssisədə bu günə kimi 30 min kvadratmetrdən artıq dam örtüyü istehsal edilib. Bunun 21-22 min kvadratmetri əsasən Laçın şəhərinin və Xocalının bərpasında istifadə olunub. Məhsullar həm fərdi yaşayış evləri, həm də ofis və iş yerləri üçün ideal həll təklif edir. İstehsal olunan dam örtüklərinin Şərqi Zəngəzur, Qarabağ və Azərbaycanın digər bölgələrinə çatdırılma imkanı var.

Qeyd edək ki, hazırda "Zerti" Aqrosənaye parkında fəaliyyət göstərən müəssisələrdə 200-ə yaxın işçi çalışır, parkda yaxın vaxtlarda tikiş fabriki və ayaqqabı istehsal edən müəssisənin də açılması nəzərdə tutulur.

Laçında əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin yaradılması prioritetdir. İşğaldan azad edildikdən dərhal sonra Laçının dirçəlişi üçün xüsusi Dövlət Proqramı qəbul edildi. Proqramın yerinə yetirilməsi üçün 3,2 milyard manat (təxminən 1,9 milyard ABŞ dolları) ayrıldı. Hazırda Laçında 520-dən çox ailə məskunlaşıb və əmək qabiliyyətli insanların işlə təmin edilməsi üçün hər cür şərait yaradılır. Bu baxımdan Prezident İlham Əliyevin Laçında "LATIFA" tikiş fabriki və "PIRSHAGHI" ayaqqabı fabrikinin açılışını etməsi iqtisadi reinteqrasiyanın praktik mərhələsi hesab oluna bilər. 1,2 milyon manat investisiya ilə "LATIFA" tikiş fabrikində 30 yeni daimi iş yeri yaradılıb. Gündəlik istehsal gücü 2 min tekstil məhsuludur. Buraya ev tekstili, idman geyimləri və ekskluziv dəstlər daxildir. "PIRSHAGHI" ayaqqabı fabriki isə 367,9 min manatlıq sərmayə ilə inşa olunub və 15 nəfərlik yeni məşğulluq imkanı təmin edilib. Fabrikin aylıq istehsal gücü 1500 cüt ayaqqabıdır. Burada kişi, qadın və uşaq ayaqqabıları istehsal olunacaq. Məhsullar daxili bazarla yanaşı, Avropa ölkələrinə ixrac üçün də nəzərdə tutulub.

Siyasi təhlilçilər hesab edirlər ki, Laçın Zirvə görüşü Cənubi Qafqazı yeni təhlükəsizlik bölgəsi kimi tanıtdı. Bu, geosiyasi müstəqilliyin bəyanıdır. CPEC, TANAP və Zəngəzur dəhlizi artıq ayrı-ayrı layihələr deyil. Laçında bu marşrutlara vahid siyasi məna verildi. Artıq bu layihələr birləşərək yeni geoiqtisadi ox formalaşdırır: Qvadar - Kaşqar - Laçın - Naxçıvan - Qars - Avropa. Bu ox üçüncü tərəflərin "nə zaman istəsəm, dəstəkləyərəm" yanaşmasından asılı deyil. Artıq öz dinamikası var. Laçın Azərbaycanın şərq və cənub bölgələrini Naxçıvan vasitəsilə Türkiyə ilə birləşdirən əsas nəqliyyat qovşağıdır. Zəngilan üzərindən keçən yolun bərpası və uzunluğu 43,4 kilometr olan Zəngəzur dəhlizi avtomagistralının açılması ilə Azərbaycan regionda logistik həlqəni birləşdirəcək. Bu, Xəzərdən Aralıq dənizi sahillərinə qədər uzanan ən qısa və dayanıqlı ticarət dəhlizinə çevrilir.

Laçında yeni və möhtəşəm bir tarixin səhifələri yazıldı, bu cənnət məkanda qardaşlıq nəğmələri səsləndi, inam, etibar, birlik, sarsılmaz güc nümayiş olundu. Qartallar oylağında qardaşlıq simfoniyası çox möhtəşəm idi, üç qardaş ölkənin ay ulduzlu bayraqları əzəmətlə və qürurla dalğalandı və bu əbədi olacaq.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 3 iyun (№ 114).-